- XƏBƏRLƏR
- FONDA IANƏLƏR
- RESURSLAR
  - Maarifləndirici nəşrlər
  - Video çarxlar
  - Foto qalereya
  - Mütəxəssis fikri
- SƏHİYYƏ İŞÇİLƏRİ ÜÇÜN
  - İnfeksion nəzarət
  - Müayinə və müalicəsi
  - Alqoritmlər
  - Evdə qayğı
  - Fərdi qoruyucu vasitələr
  - E-təlim və vebinar
- TƏLİMATLAR
  - Səhiyyə Nazirliyi
  - TƏBİB
  - Qida Təhlükəsizliyi Agentliyi

# Azərbaycanda cari vəziyyət

**27 mart 2020-ci il**

0

Virusa yoluxan

0

Yoluxan uşaqlar

0

Sağalan

0

Yeni yoluxma faktı

0 +

Laborator müayinə

0

Ölüm halı

0

Aktiv koronavirus xəstəsi

0

Vəziyyəti orta ağır olanlar

0

Vəziyyəti ağır olanlar

Koronavirus infeksiyası (COVID-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam

edir. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha ciddi tədbirlər görməyə məcbur edir.
Hazırda bir çox ölkələrdə intensiv qabaqlayıcı tədbirlər həyata keçirilməsinə baxmayaraq, qısa müddətdə infeksiyanın yayılmasının qarşısını almaq mümkün olmamışdır.

**Ümumdünya Səhiyyə Təşkilatının 27 mart 2020-ci il** tarixinə olan məlumata görə, dünyanın 202 ölkəsində 509.164 nəfər koronavirusa yoluxub və xəstəlikdən 23.335 nəfər vəfat edib. Xəstəliyin əhatə dairəsi, yoluxma tendensiyası genişlənməkdədir. Virusa qarşı profilaktik tədbirlər çərçivəsində bir çox dövlətlər risk ölkələri ilə sərhədləri bağlayır, avia reysləri təxirə salır.

**28 mart 2020-ci il** tarixində Azərbaycan Respublikasında  yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınmayıb. Hazırda  aktiv koronavirus xəstələrinin sayı 147 nəfərdir, onlardan 11 pasiyentin vəziyyəti orta ağır, 6 isə ağırdır. Bu günədək Azərbaycanda ümumi yoluxanların sayı 165-dir və koronavirusdan 3 ölüm faktı qeydə alınıb.
Koronavirusa yoluxma faktı təsdiqlənmiş pasiyentlər xüsusi rejimli xəstəxanalara yerləşdirilir və onların davamlı müşahidəsi təmin edilir.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma tendensiyasının davam etdiyini nəzərə alaraq, bir daha vətəndaşlarımızı diqqətli olmağa, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə riayət etməyə, əhalinin sağlamlığının etibarlı qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarları və müəyyənləşdirdiyi qaydaları tam yerinə yetirmək önəmlidir.



© 2020 Nazirlər Kabineti yanında Operativ Qərargah | Bütün hüquqlar qorunur

**Nazirlər Kabineti yanında Operativ Qərargah:**
+99412 492 41 61 / +99412 492 75 54 / +99412 505 03 30

**Səhiyyə Nazirliyinin Qaynar Xətti:** 9103

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Çağrı Mərkəzi:** 1542

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Qaynar Xətti:**
+99412 596 94 49